# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ

# BÜLLETENİ

APREL 2026

# MÜNDƏRİCAT


3 3 il stajı olan məhkəmə hakimləri güzəştli ipoteka krediti ala biləcəklər

4 "Güzəştli mənzil" sistemi vasitəsilə hakimlərin müraciətlərinin qəbuluna başlanıb

5 Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib

6 Ali Məhkəmənin Elmi-məsləhət şurasının iclasında ad-hoc üzv kimi iştirak etmək istəyən şəxslərə müraciət

8 Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

9 Gürcüstan Vəkillər Kollegiyasının sədri Ali Məhkəmədə olub

10 Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib

11 Türkiyə Respublikası Ali Məhkəməsinin nümayəndə heyəti ilə görüş keçirilib

13 Qazaxıstanın Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyasının rəhbərliyi ilə görüş keçirilib

14 Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasında təlim keçən hakimliyə namizədlər Azərbaycanda təlim səfərində olublar

15 Ali Məhkəmə və Bakı Apellyasiya Məhkəməsinin hakimləri Özbəkistanın Daşkənd şəhərində təlim səfərində olublar

16 Şagirdlər "Açıq qapı" günü münasibətilə Ali Məhkəmədə olublar

17 Qərarlar

26 Hüquqi aktlar

32 Dünyada Hüquq

# 3 il stajı olan məhkəmə hakimləri güzəştli ipoteka krediti ala biləcəklər



Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na edilən dəyişikliyə əsasən, ən azı 3 il hakim vəzifəsində iş stajı olan Azərbaycan Respublikası məhkəmələrinin hakimləri güzəştli ipoteka kreditindən yararlanmaq hüququ əldə ediblər.

https://president.az/az/articles/

# “Güzəştli mənzil” sistemi vasitəsilə hakimlərin müraciətlərinin qəbuluna başlanıb



“Güzəştli mənzil” sistemi vasitəsilə hakimlərin müraciətlərinin qəbuluna başlanıb.
Mənzil İnşaatı Dövlət Agentliyindən bildirilib ki, Azərbaycan Respublikası Prezidentinin 21.04.2026 tarixli 650 nömrəli Fərmanı ilə “Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası”nda edilmiş dəyişikliyə əsasən, güzəştli ipoteka kreditini almaq və Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri güzəştlə əldə etmək hüququ olan vətəndaşların sırası genişləndirilib. Müvafiq dəyişikliklə, “ən azı 3 il hakimlik stajı olan Azərbaycan Respublikası məhkəmələri hakimləri” də güzəştlə mənzil əldə etmək hüququ olan vətəndaşların kateqoriyalarına əlavə edilib.

Ölkə başçısının bu Fərmanını icra etmək məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən “Güzəştli mənzil” elektron sistemində zəruri dəyişiklik və təkmilləşdirmə işi aparılıb, həmin kateqoriyaya uyğun olan hakimlər tərəfindən təqdim edilməli sənədlər müəyyənləşdirilib. Sənədlərin siyahısı ilə mida.gov.az internet səhifəsində yerləşən “Güzəştli mənzili kim ala bilər” bölməsində tanış olmaq mümkündür.

Həmin şəxslər 06.05.2026-cı il tarixindən etibarən SİMA Rəqəmsal İmza ( https://sima.az/az ), Asan İmza (https://asanimza.az/) və ya SİMA Token (Elektron İmza) (https://sima.az/az/token) istifadə edərək “Elektron hökumət” portalında (www.e-gov.az) yaradılmış “Güzəştli mənzil” sistemi vasitəsilə müraciət edə bilərlər.

Xatırladaq ki, güzəştli mənzil əldə etmək istəyən vətəndaşların rahatlığını təmin etmək, “Güzəştli mənzil” elektron sistemindən istifadə ilə bağlı sualları cavablandırmaq, habelə elektron kabinetin yaradılmasında köməklik göstərmək məqsədilə Bakı şəhərində yerləşən 5 saylı Bakı “ASAN xidmət” mərkəzində “Güzəştli mənzil” pəncərəsi vətəndaşlara xidmət göstərir. Bununla yanaşı, vətəndaşlar “ASAN xidmət” mərkəzlərinə gəlmədən ölkənin istənilən regionundan “108 Çağrı” mərkəzinə zəng edərək suallarına cavab tapa bilərlər.

# *Ali Məhkəmə Plenumunun növbəti iclası keçirilib*



2026-ci il aprelin 6-da Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

İclasda “Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun bəzi qərarlarında dəyişiklik edilməsi haqqında” qərar layihəsi müzakirə olunaraq təsdiq edilib.

Həmçinin Ali Məhkəmənin məhkəmə kollegiyalarının tərkiblərinin, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə və əlavə kassasiya qaydasında yenidən baxılmasına dair məhkəmə tərkiblərinin və kassasiya instansiyası məhkəməsində məhkəmə aidiyyətinə dair mübahisələr üzrə şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərdən ibarət qarışıq tərkibdə baxılmasına dair Plenumun Qərar layihələrinin müzakirəsi aparılıb.

Sonra 2025-ci ildə Bakı Kommersiya Məhkəməsində, eləcə də Gəncə Şəhər Məhkəməsində qanunvericiliyin tətbiqinin məhkəmə təcrübəsinə dair məsələləri üzrə və ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyətinə dair məlumatlar dinlənilib.

# Ali Məhkəmənin Elmi-məsləhət şurasının iclasında ad-hoc üzv kimi iştirak etmək istəyən şəxslərə müraciət



2026-cı il 12 iyun tarixdə Ali Məhkəmənin Elmi-məsləhət şurasının növbəti iclasının keçirilməsi nəzərdə tutulur.

İclasda "Məhkəmələr tərəfindən mübahisələrə baxılarkən inzibati praktikada bərabər yanaşma və etimad hüququnun qorunması prinsiplərinin tətbiqi məsələlərinə dair " müzakirələrin təşkili planlaşdırılıb.

Müzakirə ediləcək mövzuların əhəmiyyəti nəzərə alınaraq, bu sahələr üzrə ixtisaslaşmış hüquqşünas ekspertlərin ad-hoc üzv kimi Elmi-məsləhət şurasının təşkil edəcəyi müzakirələrdə iştiraka və yazılı mülahizələrini təqdim etməyə dəvət edilir.

Yuxarıda qeyd olunan mövzulara dair elmi müzakirələrdə iştirak etmək istəyən hüquqşünas ekspertlərin 5 iyun 2026-cı il tarixədək aşağıdakı elektron ünvana müraciət etmələri (CV əlavə olunmaqla) təklif olunur. (advisory.board@supremecourt.gov.az)

Seçiləcək namizəd ekspertlər iclasa ad-hoc üzvlər kimi dəvət olunacaqlar.

Aşağıdakı suallara ətrafında müzakirələr aparılması planlaşdırılır

1. Qanunvericilik "etimadın qorunması" prinsipinə necə anlayış verib? Məhkəmə təcrübəsi bu prinsipi necə təfsir (izah) edir? Həmin anlayış və təfsir (izah) inzibati orqanın inzibati icraatı apararkən formalaşdırdığı inzibati praktikaya etimadla yanaşı, qanunvericiliyə və məhkəmə təcrübəsinə etimadı da ehtiva edirmi?

2. Etimad hüququnun qorunması ilə bağlı inzibati praktikaya, qanunvericiliyə və məhkəmə təcrübəsinə etimadı yaranma əsaslarına və təqdim etdikləri qoruma sferasına görə

fərqləndirmək lazımdırmı? Əgər belə fərqləndirmə aparılmalıdırsa, hansı meyarlar əsasında aparılmalıdır?

3. Qanunvericilikdə və məhkəmə təcrübəsində "inzibati praktika"ya anlayış və izah verilibmi? İnzibati praktika dedikdə nə başa düşülməlidir?

4. İnzibati orqanın hər hansı bir təcrübəsi nə zaman inzibati praktikaya çevrilmiş sayılmalıdır? İnzibati orqanlar praktika yaradan qərarlarını xüsusi hüquqi mexanizmlər vasitəsilə, yoxsa ümumi qaydaya uyğun qəbul edirlər?

5. İnzibati praktikanın mövcudluğu hansı qaydada müəyyən edilir? Vətəndaşlar və məhkəmələr üçün inzibati praktikanı müəyyən etmək əlçatandırmı? İnzibati praktika ilə bağlı dövri monitorinqlər aparılırmı?

6. İnzibati praktikaya etimad hüququnun tanınması üçün hansı şərtlərin mövcudluğu tələb olunur?

7. İnzibati praktikanın yaradılması, yenilənməsi və dəyişdirilməsi  hansı qaydada həyata keçirilir? Xüsusilə məhkəmə təcrübəsi inzibati praktikanın yaradılmasını, yenilənməsini və dəyişdirilməsini tələb etdikdə inzibati orqanların fəaliyyətində bu baş verirmi və hansı hüquqi mexanizmlər vasitəsilə həyata keçirilir?

8. Məhkəmə təcrübəsinin tələb etməsinə baxmayaraq inzibati praktika dəyişmədikdə hansı tədbirlər (o cümlədən məsuliyyət tədbirləri) görülməlidir?

9. İnzibati orqan istər özünün mövcud olan, istərsə də məhkəmə təcrübəsi vasitəsilə yaradılmış inzibati praktikasına uyğun davranmadıqda məsuliyyət məsələsi necə həll olunmalıdır?

10. Qanunsuz və ya qanuni əlverişli inzibati aktların ləğvi zamanı etimad hüququnun qorunması necə tənzimlənir? İnzibati aktın ləğvi zamanı maraqlı şəxsin etimad hüququnun nəzərə alınması hansı hallarda mümkün hesab olunur?

11. Qanunsuz əlverişli inzibati aktların ləğvi zamanı maraqlı şəxsin etimad hüququnun məhdudlaşdırılması hansı hallarda mümkün hesab edilir?

12. Qanunsuz və ya qanuni əlverişli inzibati aktların ləğvi zamanı maraqlı şəxsin çəkdiyi xərclərin və ya itkilərin kompensasiya edilməsi məsələsi necə həll olunur?

13. Qanunsuz və ya qanuni əlverişli inzibati aktların ləğvi zamanı dövlət və ictimai maraqlar ilə fərdi maraqların balansı hansı meyarlar əsasında müəyyən edilir?

14. Qanunsuz və ya qanuni əlverişli inzibati aktların ləğvi hər hansı müddətlə məhdudlaşırmı? Qanunvericilikdə təsbit edilmiş konkret müddətlər vardırmı ki, həmin müddətlər keçdikdən sonra əlverişli inzibati aktın ləğvi məsələsinə baxıla bilməz? Müddətin başlanğıcı hansı qaydada müəyyənləşdirilməlidir? İnzibati orqanın aktın ləğvinə əsas təşkil edən halı bildiyi və ya bilməli olduğu vəziyyətlər hansı meyarlar əsasında fərqləndirilməlidir?

15. İnzibati praktika nə zaman və hansı meyarlar əsasında qanunsuz inzibati praktika sayıla bilər? Qanunsuz inzibati praktikaya etimad hüququ tanınırmı?

16.Zəruri hesab edilən digər başqa məlumatlar da təqdim oluna bilər.

## Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib



2026-cı il aprelin 28-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi və səmərəliliyinin artırılması istiqamətində görülmüş işlər barədə məlumat verib, qarşıda duran hədəfləri diqqətə çatdırıb.

İclasda Məhkəmə-Hüquq Şurasının Aparatı və işçi qrupları tərəfindən məhkəmə fəaliyyətinə dair hazırlanmış layihələr ətrafında müzakirələr aparılıb, "Azərbaycan Respublikasının məhkəmələrində monitorinqin aparılması qaydaları" layihəsi təsdiq olunub.

Sonra Şuranın üzvü, Mülki və kommersiya işləri üzrə ədalət mühakiməsinin səmərəliyinin təhlilinə dair İşçi qrupun rəhbəri Sənan Hacıyev tərəfindən ölkə məhkəmələrində mülki və kommersiya mübahisələri üzrə icraatı dayandırılmış işlərə dair məlumat təqdim olunub.

Həmçinin Hakimlərin Qiymətləndirilməsi Komitəsinin sədri Əhliman Xıdırov hakimlərin fəaliyyətinin qiymətləndirilməsi barədə Şura üzvlərini məlumatlandırıb.

İclasda kadr məsələlərinə, Hakimlərin Seçki Komitəsinə üzv seçilməsi və intizam icraatı üzrə işlərə baxılaraq müvafiq qərarlar qəbul edilib.

# Gürcüstan Vəkillər Kollegiyasının sədri Ali Məhkəmədə olub



2026-cı il 1 aprel tarixində ölkəmizdə səfərdə olan Gürcüstan Vəkillər Kollegiyasının sədri İrakli Kandaşvili Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonağı salamlayan Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Azərbaycan və Gürcüstan arasında bütün istiqamətlərdə olduğu kimi, hüquqi sahədə də əməkdaşlığın yüksək səviyyəyə çatdığını bildirib. Həmçinin qarşılıqlı səfərlər və təcrübə mübadiləsinin münasibətlərin möhkəmləndirilməsinə mühüm töhfə verdiyi diqqətə çatdırılıb.

Daha sonra qonağa ölkəmizdə məhkəmə sahəsində görülən işlər, vəkillik institutu ilə məhkəmə sistemi arasında əməkdaşlığın mövcud vəziyyəti, eləcə də bu sahədə mütəmadi təşkil olunan görüş və müzakirələr barədə ətraflı məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən İrakli Kandaşvili öz növbəsində Azərbaycanda aparılan məhkəmə-hüquq islahatlarını yüksək qiymətləndirərək qeyd edib ki, bu cür görüşlər peşəkar əməkdaşlığın inkişafı və ortaq təşəbbüslərin həyata keçirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Görüş zamanı iki ölkə arasında hüquqi əməkdaşlığın inkişaf perspektivləri, vəkillik institutunun rolu, məhkəmə-hüquq sahəsində qarşılıqlı təcrübə mübadiləsi və digər məsələlər müzakirə olunub.

# Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib



2026-cı il aprelin 7-də ölkəmizdə səfərdə olan Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Muhsin Şentürkün rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov Azərbaycan ilə Türkiyə arasında mövcud olan qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə toxunaraq, iki ölkə arasında əlaqələrin bütün sahələr üzrə uğurla inkişaf etdiyini vurğulayıb. Bildirilib ki, məhkəmə-hüquq sahəsində də əməkdaşlıq qarşılıqlı səfərlər və təcrübə mübadiləsi çərçivəsində daha da möhkəmlənir.

Görüş zamanı ölkəmizdə məhkəmə sisteminin müasir tələblərə uyğun qurulması, elektron xidmətlərin genişləndirilməsi, hakimlərin peşəkarlıq səviyyəsinin artırılması, eləcə də cəza siyasətinin humanistləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Muhsin Şentürk ikitərəfli əlaqələri yüksək qiymətləndirərək, bu münasibətlərin inkişafına xüsusi önəm verildiyini qeyd edib.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Türkiyə Respublikası Ali Məhkəməsinin nümayəndə heyəti ilə görüş keçirilib



2026-cı il aprelin 14-də Azərbaycan Respublikasının Ali Məhkəməsində Türkiyə Respublikası Ali Məhkəməsinin (Yargıtay) 2-ci Cinayət kollegiyasının sədri Yusuf Kuzunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov Azərbaycan ilə Türkiyə arasında bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də səmərəli əməkdaşlıq münasibətlərinin mövcud olduğunu vurğulayıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Ali Məhkəməsi ilə Türkiyə Respublikasının Ali Məhkəməsi arasında imzalanmış Əməkdaşlıq haqqında Anlaşma Memorandumu əsasında əlaqələr uğurla inkişaf etdirilir. Sənədə uyğun olaraq, hər iki ölkənin hakimlərindən ibarət nümayəndə heyətlərinin qarşılıqlı səfərləri təşkil olunur, təcrübə mübadiləsi həyata keçirilir.

Görüşdə məhkəmə fəaliyyəti sahəsində təcrübə mübadiləsinin əhəmiyyəti qeyd olunub, hər iki ölkənin məhkəmə sistemlərində tətbiq olunan mütərəqqi təcrübələrin öyrənilməsinin vacibliyi vurğulanıb.

Səmimi qəbula görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri Yusuf Kuzu ikitərəfli əlaqələri yüksək qiymətləndirib. Səfərin əsas məqsədinin məhkəmə fəaliyyəti sahəsində təcrübə mübadiləsinin aparılması, hər iki ölkənin məhkəmə sistemlərində tətbiq olunan mütərəqqi təcrübələrin öyrənilməsi və əməkdaşlığın daha da genişləndirilməsi olduğu diqqətə çatdırılıb.

Görüşdə həmçinin məhkəmə təcrübəsi, cinayət mühakimə icraatının müxtəlif aspektləri və gələcək əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.
Qeyd edək ki, 2026-cı il 13-19 aprel tarixlərini əhatə edən səfər çərçivəsində Türkiyə Respublikası Ali Məhkəməsinin nümayəndə heyəti Azərbaycanda bir sıra görüşlər keçirəcək.





# Qazaxıstanın Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyasının rəhbərliyi ilə görüş keçirilib



2026-cı il aprelin 15-də ölkəmizdə səfərdə olan Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyasının rektoru vəzifəsini icra edən Kanat Musin Azərbaycan Respublikasının Ali Məhkəməsində olub.

Qonağı salamlayan Ali Məhkəmənin sədr müavini Çingiz Əsgərov Azərbaycan və Qazaxıstan arasında strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən məhkəmə-hüquq sistemində uğurla inkişaf etdiyini vurğulayıb.

Qeyd olunub ki, ədalət mühakiməsinin təkmilləşdirilməsi, iki dövlətin məhkəmə orqanları arasında əməkdaşlığın genişləndirilməsi və əlaqələrin dərinləşdirilməsi məqsədilə 2025-ci il 29 oktyabr tarixdə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası ilə Qazaxıstan Respublikasının Ali Məhkəmə Şurası arasında imzalanmış əməkdaşlıq haqqında Anlaşma Memorandumu xüsusi əhəmiyyət kəsb edir.

Qonağa ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, bu sahədə tətbiq edilən yeniliklər, hakimlərin seçim prosesi və qiymətləndirilməsi barədə ətraflı məlumat verilib.

Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədalət Akademiyasının rektoru vəzifəsini icra edən Kanat Musin səmimi qəbula görə təşəkkür edərək, Azərbaycanla hüquq sahəsində əməkdaşlığın gücləndirilməsinin hər iki ölkənin məhkəmə sistemlərinin təkmilləşdirilməsinə xidmət edəcəyini bildirib. Həmçinin məhkəmə sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi, təcrübə və informasiya mübadiləsinin təşviqinin əhəmiyyəti qeyd olunub.

Sonra qonaq Ali Məhkəmənin inzibati binası ilə tanış olub.

# Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasında təlim keçən hakimliyə namizədlər Azərbaycanda təlim səfərində olublar



Cari ilin 13-24 aprel tarixlərində Qazaxıstan Respublikası Ali Məhkəmə Şurası yanında Ədliyyə Akademiyasında təlim keçən 59 hakimliyə namizədə (26-na onlayın formada) azərbaycanlı hakimlər tərəfindən müxtəlif mövzulara dair təlimlər keçirilib.

Təlim çərçivəsində namizədlərə məhkəmə fəaliyyətinin müstəqilliyi və təşkili əsasları, hüququn müxtəlif sahələri, hüquqi yazı bacarıqları, habelə hakim etikası üzrə mövzular tədris edilib.

Təlimlərlə yanaşı, namizədlər məhkəmələrdə işlərə baxılması qaydası ilə tanış olmaq üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Bakı Apellyasiya Məhkəməsinə, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə və Sumqayıt Məhkəmə Kompleksinə səfər edərək məhkəmələrin fəaliyyətini yerində müşahidə ediblər. Səfər çərçivəsində iştirakçılara həmçinin "Elektron məhkəmə" informasiya sisteminin funksional imkanları barədə ətraflı məlumat verilib.

Ümumilikdə, təlim səfəri Azərbaycan və Qazaxıstan arasında məhkəmə-hüquq sahəsində əməkdaşlığın daha da gücləndirilməsinə, bu sahədə milli və beynəlxalq qabaqcıl təcrübələrin mübadiləsinə, eləcə də hakimliyə namizədlərin peşəkar inkişafına mühüm töhfə verib.

# Ali Məhkəmə və Bakı Apellyasiya Məhkəməsinin hakimləri Özbəkistanın Daşkənd şəhərində təlim səfərində olublar



Özbəkistan Respublikası Ədliyyə Akademiyasının təşkilatçılığı ilə Özbəkistanın paytaxtı Daşkənd şəhərində "Rəqəmsal ədalət mühakiməsi: beynəlxalq standartlar, informasiya təhlükəsizliyi və insan hüquqları" mövzusunda beynəlxalq təlim proqramı keçirilmişdir. Təlimdə Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Teyyub Muxtarov və Bakı Apellyasiya Məhkəməsinin hakimi Əli Məmmədov iştirak ediblər.

Təlim kibercinayətlərin açılması və rəqəmsal sübutların (o cümlədən blokçeyn və darknet) kriminalistik təhlili, korrupsiyaya qarşı mübarizənin beynəlxalq hüquqi əsasları və məhkəmə prosesində etik normalar, insan hüquqlarının qorunması, söz azadlığının təmin edilməsi, qadın və uşaqların zorakılıqdan qorunması mövzularına dair nəzəri və praktiki məsələləri əhatə edib.

Tədbir iştirakçıları sırasında Azərbaycanla yanaşı Türkiyə, Qazaxıstan, Qırğızıstan və Tacikistanın hakimləri, məhkəmələrdə təlimin aparılması üzrə ixtisaslaşmış məsul təşkilatların nümayəndələri, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının, UNİCEF, UNESCO-nun aparıcı mütəxəssisləri, həmçinin tanınmış yerli və xarici professorlar da yer alıb.

Eyni zamanda səfər çərçivəsində Özbəkistan Respublikasının Ali Məhkəməsi və Yunusabad Rayon Məhkəməsi, habelə İslam Svilizasiya Mərkəzi ilə yerində tanışlıq baş tutub.

Təlim rəqəmsal ədalət mühakiməsi üzrə aktual məsələlər barəsində peşəkar bilik və təcrübələrin artırılması ilə yanaşı, həm də ölkələrin məhkəmə təlimi sahəsində qurumlararası əməkdaşlığının gücləndirilməsinə xidmət edib.

# Şagirdlər "Açıq qapı" günü münasibətilə Ali Məhkəmədə olublar



"Oxbridge Academy"nin şagirdləri növbəti "Açıq qapı" günü münasibətilə Azərbaycan Respublikasının Ali Məhkəməsində olublar.

Şagirdlər Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə iclas zallarını, Plenum zalını, məhkəmənin kitabxanasını və Məhkəmə Tarixi Muzeyini ziyarət ediblər.

Tanışlıq çərçivəsində Ali Məhkəmənin Mülki kollegiyasının hakimi Rəşad Həsənov şagirdlərə ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları, məhkəmələrin dövlət idarəçiliyində yeri və rolu, habelə qanunvericilik və məhkəmə təcrübəsi barədə məlumat verib. İştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Sonda şagirdlər xoş təəssüratlarını bölüşüb və xatirə fotosu çəkdiriblər.

## Mülki işlər üzrə
## ★★★ statuslu qərar

**2(102)-3011/2025 xülasə**

İddiaçı MTK-nın işçisi olan şəxs tərəfindən MTK-nın adından cavabdehlərlə kooperativ binada mənzil tikintisi haqqında müqavilələr bağlanmışdır. Sonradan məlum olmuşdur ki, həmin şəxsin mənzillərə görə cavabdehlərə verdiyi sənədlər (müqavilələr, MTK-nın ümumi iclas protokollarından çıxarışlar, maliyyə arayışları) saxta olmuş, (həmin sənədlər kompüter texnikası və rəngli printer aparatından istifadə edilməklə hazırlanmışdır), cavabdehlərdən mənzillərə görə aldığı pulları isə MTK-ya təhvil verməyərək mənimsəmişdir.

MTK qeyd olunan hallara istinad edərək, cavabdehlərlə bağlanmış müqavilələrin etibarsız hesab edilməsi barədə iddia qaldırmışdır.
Cavabdehlər isə iddiaya etiraz edərək, mənzillərin MTK-nın səlahiyyətli nümayəndəsi tərəfindən satılmasını, mənzilləri qanuni əsaslarla, razılaşdırılmış məbləğdə dəyərini ödəməklə əldə etmələrini, mənzillərin satışına dair yerləşdirilmiş elandakı mobil nömrənin həmin şəxsin istifadəsində olmasını, sonuncu tərəfindən aldadılmalarının onlara sonradan məlum olduğunu bildirmişlər.
Apellyasiya instansiyası məhkəməsi iddianı təmin etməmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Kassasiya instansiyası məhkəməsi qeyd etmişdir ki, Mülki Məcəllənin 359.1-ci maddəsinə əsasən əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.
Baxılan işdə cavabdehlər MTK-nın səlahiyyətli nümayəndəsi kimi onlarla müqavilə bağlayan şəxsin cinayətkar niyyətini, onun mənzil satmaq səlahiyyətinin olmamasını, mənzillərin satışı ilə bağlı onlara verdiyi sənədlərin saxta olduğunu və onlardan aldığı pulları da özünə götürərək mənimsədiyini bilməmişlər. Mövcud şəraitə görə cavabdehlərin bunları bilməsi də qeyri-mümkün olmuşdur. Belə ki, həmin şəxs MTK-nın rəsmi işçisi olmuş, inşa edilən binanın 1-ci mərtəbəsində yerləşən MTK-nın ofisində onun iş otağı olmuş, binadakı mənzillərlə maraqlanan şəxsləri bu şəxs həmin ofisdə qəbul etmiş, mənzillərin giriş qapılarının açarları onda olmuş və müştərilərə mənzilləri əyani olaraq göstərmiş, onlara mənzillər və satış şərtləri barədə məlumat vermiş, həmçinin müştərilərə alınan mənzillərin açarlarını təqdim etmişdir. Mənzillər satılan binanın üzərində yerləşdirilmiş reklam lövhəsində alıcıların müraciət etməsi üçün göstərilmiş telefon nömrəsi də məhz həmin şəxsin istifadəsində olmuşdur (MTK tərəfindən onun istifadəsinə verilmişdir). Qeyd olunan vəziyyətdə cavabdehlərin onu MTK-nın vəzifəli şəxsi və səlahiyyətli nümayəndəsi (təmsilçisi) kimi qəbul etmələri təbii olmuşdur.
Göstərilənlərə əsasən kassasiya şikayəti təmin edilməmiş, apellyasiya instansiyası məhkəməsinin qətnaməsi dəyişdirilmədən saxlanılmışdır.

# Cinayət işləri üzrə ★★★ statuslu qərar

**1[102]-2208/2025 xülasə**

**İşin halları:**
İrəli sürülmüş ittihama əsasən, şəxs qanunsuz olaraq istintaqa məlum olmayan vaxtda və mənbədən odlu silah hesab edilən tüfəngi əldə edərək yaşadığı mənzildə saxlamış, həmin silah keçirilmiş əməliyyat tədbirləri zamanı onun yaşadığı mənzilə baxış keçirilərkən evin yataq otağında aşkar edilərək götürülmüşdür.

Bundan başqa o, qanunsuz olaraq istintaqa məlum olmayan vaxtda və mənbədən 1 ədəd kustar üsulla hazırlanmış, bir tərəfi kəsici, ucu deşici xassəyə malik və istifadəyə yararlı olan, soyuq silah hesab edilən ov bıçağını və həmçinin 1 ədəd özünümüdafiə təyinatlı aerozol qurğu olan qaz silahını əldə edərək yaşadığı mənzildə saxlamış, həmin soyuq və qaz silahı keçirilmiş əməliyyat tədbirləri zamanı onun mənzilinə baxış keçirilərkən evin yataq otağında yerləşən dolabdan aşkar edilərək götürülmüşdür.

Bundan başqa o, qonşusunun yaşadığı mənzilə daxil olaraq həmin mənzildə stolun üstündə olan, şəxsi istehlak miqdarından artıq miqdarda, təmiz çəkisi 46,061 qram narkotik vasitə tiryəki, şəxsi istehlak miqdarından artıq miqdarda, üzərində “Methadone 40” göstəriciləri olan dərman konvalyutunda 2 ədəd açıq qəhvəyi rəngli “F/M 40” göstəricili təsir edici maddəsinin ümumi miqdarı 0,080 qram olan narkotik vasitə metadon həblərini, külli miqdarda, təmiz çəkisi 3055,4 qram narkotik vasitə qurudulmuş marixuananı, habelə 1 ədəd elektron tərəzini qonşusunun razılığı ilə satış məqsədi olmadan qanunsuz olaraq əldə edib yaşadığı ünvana daşıyaraq saxlamış, keçirilmiş əməliyyat tədbirləri zamanı yaşadığı ünvanın qarşısında saxlanılaraq Sumqayıt ŞPİ-nin inzibati binasına aparılıb xidməti otaqda üzərində şəxsi axtarış aparılarkən əynindən ümumi təmiz çəkisi 4,69 qram narkotik vasitə qurudulmuş marixuana aşkar edilərək götürülmüş, keçirilmiş əməliyyat tədbirlərinin davamı olaraq həmin tarixdə onun yaşadığı ünvana baxış keçirilərkən evin yataq otağında yerləşən dolabdan satış məqsədi olmadan saxladığı 1 ədəd bükülünün içərisində şəxsi istehlak miqdarından artıq miqdarda təmiz çəkisi 46,061 qram narkotik vasitə tiryək, şəxsi istehlak miqdarından artıq miqdarda, üzərində “Methadone 40” göstəriciləri olan dərman konvalyutunda 2 ədəd açıq qəhvəyi rəngli “F/M 40” göstəricili təsiredici maddəsinin ümumi miqdarı 0,080 qram olan narkotik vasitə metadon həbləri, külli miqdarda, bir ədəd kağız bağlamada, təmiz çəkisi 2000 qram, 1 ədəd kağız bağlamada təmiz çəkisi 875 qram, 1 ədəd kağız bağlamada təmiz çəkisi 169,55 qram, 4 ədəd kibrit qutusunda, ayrı-ayrılıqda təmiz çəkiləri 1,020 qram, 1,520 qram, 2,02 qram, 0,59 qram, 1 ədəd sellofan bükümdə təmiz çəkisi 0,610 qram və 1 ədəd kağız bükülünün içərisində təmiz çəkisi 0,400 qram, hər biri ümumilikdə təmiz çəkisi 3050,71 qram narkotik vasitə qurudulmuş marixuana və üzərində narkotik vasitə izləri olan bir ədəd elektron tərəzi aşkar edilərək götürülmüşdür.

**Birinci instansiya məhkəməsinin mövqeyi:**
Birinci instansiya məhkəməsinin hökmünə əsasən, CM-in 228.1, 228.4 və 234.1-ci maddələri ilə təqsirli bilinərək, CM-in 228.1-ci maddəsi ilə 2 il müddətinə, CM-in 234.1-ci maddəsi ilə 2 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edilmiş, CM-in 228.4-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb etmə müddəti keçdiyinə görə cəza təyin edilməmiş, CM-in 66.2-ci maddəsinə əsasən təyin edilmiş cəzaları qismən toplamaq yolu ilə qəti olaraq 3 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, CM-in 69.3-cü maddəsinə

əsasən həbsdə olduğu 7 ay müddət ona təyin olunmuş azadlıqdan məhrum etmə növündə cəzaya hesablanıb həmin cəzadan çıxılmaqla üzərində qəti olaraq 2 il 11 ay müddətinə azadlıqdan məhrumetmə cəzası saxlanılmışdır.

**Apellyasiya instansiyası məhkəməsinin mövqeyi:**
Hökm dəyişdirilmiş, məhkuma CM-in 228.1-ci maddəsi ilə təyin edilmiş 2 il müddətinə azadlıqdan məhrum etmə cəzası 1 il müddətinə azadlıqdan məhrum etmə cəzasına, CM-in 234.1-ci maddəsi ilə təyin edilmiş 2 il müddətinə azadlıqdan məhrum etmə cəzası 1 il müddətinə azadlıqdan məhrum etmə cəzasına endirilmiş, CM-in 66.2-ci maddəsinə əsasən təyin edilmiş cəzaları qismən toplamaq yolu ilə 1 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, CM-in 69.3-cü maddəsinə əsasən, həbsdə olduğu 7 ay müddət təyin olunmuş azadlıqdan məhrum etmə növündə cəzaya hesablanmaqla həmin cəzadan çıxılmaqla üzərində qəti cəza olaraq 11 ay müddətinə azadlıqdan məhrumetmə cəzası saxlanılmış, məhkumun müdafiəçisi tərəfindən verilmiş apellyasiya şikayəti qismən təmin edilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mövqeyi:**
Kassasiya protesti təmin edilməmiş, apellyasiya məhkəməsinin qərarı dəyişdirilmişdir. Birinci instansiya məhkəməsinin hökmü və apellyasiya məhkəməsinin qərarı məhkumun CM-in 228.4-cü maddəsi ilə məhkum edilməsi hissəsində ləğv edilmişdir. Həmin hissədə cinayət işi üzrə icraata Azərbaycan Respublikası CPM-in 39.2-ci maddəsinə əsasən, yəni təqsirliliyinin sübuta yetirilməməsi səbəbindən xitam verilmişdir.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin əsaslandırması:**
Kassasiya kollegiyası məhkumun CM-in 228.1 və 234.1-ci maddələri ilə nəzərdə tutulmuş əməllərinə dair birinci və apellyasiya instansiyası məhkəmələrinin gəldikləri nəticələrin iş materiallarına, o cümlədən sübutların məcmusuna və işin faktiki hallarına tam uyğun olmasını, məhkumun təqsiri müəyyən edilərkən sübutların CPM-in 144–146-cı maddələrinin tələblərinə uyğun olaraq qiymətləndirilməsini nəzərə alaraq həmin nəticələri əsaslı hesab etmişdir.
Lakin, kassasiya kollegiyası məhkumun CM-in 228.4-cü maddəsi ilə məhkum edilməsini əsaslı hesab etməmişdir, çünki onun həmin maddə ilə təqsirliliyi məhkəmə iclasında tədqiq edilmiş mötəbər və mümkün sübutlarla təsdiq olunmur.
Şəxs CM-in 228.4-cü maddəsi ilə yalnız o halda cinayət məsuliyyətinə cəlb edilə bilər ki, onun əməlində həmin maddə ilə nəzərdə tutulmuş cinayətin bütün tərkib əlamətləri mövcud olsun. CM-in 228.4-cü maddəsinin dispozisiyasından görünür ki, bu cinayətin obyektiv cəhəti qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə hərəkətlərində ifadə olunur.
Ona görə də şəxsin CM-in 228.4-cü maddəsi ilə cinayət məsuliyyətinə cəlb edilməsinin zəruri şərtlərindən biri onun tərəfindən həmin cinayətin obyektiv cəhətini təşkil edən əməllərin – yəni qanunsuz olaraq soyuq və qaz silahlarının əldə edilməsi, satılması, daşınması və ya gəzdirilməsinin qəsdən törədilməsi və bu halın cinayət işi üzrə toplanmış mötəbər sübutlarla təsdiq olunmasıdır.
İş materiallarından görünür ki, məhkumun CM-in 228.4-cü maddəsi ilə cinayət məsuliyyətinə səbəb olan soyuq silah - bıçaq və qaz silahı - özünümüdafiə təyinatlı aerozol polis əməkdaşları tərəfindən onun yaşadığı evinin yataq otağının dolabında aşkar edilmişdir. Məhkum həm cinayət işi üzrə ibtidai istintaq zamanı, həm məhkəmədə ifadəsində göstərmişdir ki, həmin silahlar onun məhrum atasına məxsus olmuş və sonuncunun ölümündən sonra evdə qalmışdır. Məhkumun bu ifadəsi cinayət işi üzrə şahid qismində dindirilmiş şəxslərin ifadələri ilə təsdiq olunmuşdur. İstintaq orqanı məhkum və şahidlərin ifadələrini təkzib edən və ya aşkar edilmiş soyuq və qaz silahlarının məhkum tərəfindən əldə edilməsini təsdiq edən heç bir sübut əldə etməmiş və məhkəməyə təqdim etməmişdir. Məhkəmə istintaqı zamanı da qeyd edilən silahların məhkum tərəfindən əldə edilməsi müəyyən edilməmişdir.

Həmçinin müəyyən edilmişdir ki, qaz silahı - özünümüdafiə təyinatlı spreyin istifadə müddəti 2018-ci ilin yanvar ayında bitmişdir.
Beləliklə, iş materiallarından müəyyən edilmişdir ki, istintaq orqanı və məhkəmələr məhkuma qarşı CM-in 228.4-cü maddəsi ilə ittihamı və onun barəsində həmin maddə ilə ittiham hökmünü yalnız soyuq və qaz silahlarının onun yaşadığı evdə aşkar edilməsi faktı ilə əsaslandırmışlar. Məhz bu fakta istinad etməklə, həmin soyuq və qaz silahlarının qanunsuz əldə edilməsini təsdiq edən hər hansı mötəbər sübut olmadan istintaq orqanı və məhkəmələr məhkumun bu silahları qanunsuz olaraq əldə etməsi nəticəsinə gəlmişlər.
Beləliklə, kassasiya kollegiyası belə nəticəyə gəlmişdir ki, məhkumun barəsində cinayət işi üzrə icraata onun CM-in 228.4-cü maddəsi ilə təqsirləndirilməsinə dair hissədə təqsirliliyinin sübuta yetirilməməsi səbəbindən xitam verilməlidir.

*∗Bu xülasə məhkəmə qərarının anlaşılan olmasında yardımçı olmaq məqsədilə Ali Məhkəmənin Aparatı tərəfindən tərtib edilmişdir və qərarın tərkib hissəsi olmamaqla, onun qısa məzmununu təşkil edir. Yalnız məhkəmə tərəfindən qəbul edilmiş məhkəmə aktı rəsmi sənəddir və rəsmi olaraq yalnız ona istinad edilə bilər.*

## İnzibati işlər üzrə ★★★ statuslu qərar

**2-1[102]-2199/2025 xülasə**

Azərbaycan Respublikası Prezidentinin 24.01.2017-ci il tarixli, 1207 nömrəli Fərmanı ilə gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitin 60 faizinin Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavə kimi ödənilməsi nəzərdə tutulmuşdur. Lakin "Əmək pensiyaları haqqında" Qanuna 30.11.2018-ci il tarixli Qanunla edilmiş dəyişiklik nəticəsində həmin Qanunun 1.0.5-ci maddəsində "digər əlavələrdən" sözlərindən sonra "(büdcədənkənar vəsaitlər hesabına hesablanan əlavələr və digər ödənişlər istisna olmaqla)" ifadəsi əlavə edilmişdir. Gömrük orqanlarında xidmət etmiş şəxs kimi iddiaçının pensiya hüququ 04.06.2021-ci il tarixdə yarandığından və bu tarixdə qeyd olunan dəyişiklik qüvvədə olduğundan, Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin, o cümlədən iddiaçının aylıq vəzifə maaşına əlavə kimi ödənilən vəsaitin 60 faizi ona pensiya təyin edilərkən nəzərə alınmamışdır.

Sonradan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21.04.2022-ci il tarixli, 170 nömrəli qərarı ilə Nazirlər Kabinetinin 17.10.2017-ci il tarixli, 437 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydaları"na dəyişiklik edilmişdir. Həmin dəyişikliklə Qaydaların 1.3-cü bəndi yeni redaksiyada verilmiş və müəyyən edilmişdir ki, vəsaitin 60 faizi dövlət büdcəsinə köçürülür və bu vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavə kimi istifadə edilir. Beləliklə, edilən dəyişiklik nəticəsində gömrük orqanlarında çalışan xüsusi rütbəsi olan əməkdaşlara və mülki işçilərə ödənilən həmin əlavələr dövlət büdcəsi vəsaiti hesabına formalaşaraq təminat xərcliyinə daxil edilmiş və həmin tarixdən pensiya hesablanarkən nəzərə alınmağa başlanılmışdır.

İddiaçı müvafiq tələbində qeyd olunan normativ dəyişikliyin onun hüquqi vəziyyətini yaxşılaşdırdığına istinad edərək, büdcədənkənar vəsait hesabına ödənilmiş 60 faiz əlavələrin əmək pensiyasının yenidən hesablanması məqsədilə təminat xərcliyinə daxil edilməsi üçün yeni məlumat vərəqəsinin verilməsini xahiş etmişdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının (hakimlər: S.Kərimov /məruzəçi/, R.Nəbizadə və B.Məmmədli) 13.01.2026-cı il tarixli, 2-1(102)-2199/2025 nömrəli üç ulduzlu qərarındakı hüquqi mövqeyə əsasən, qanunvericilikdə edilən dəyişikliklər nəticəsində 01.01.2019-cu il tarixindən sonra və 01.07.2022-ci il tarixədək pensiya hüququ yaranmış şəxslər, o cümlədən iddiaçı bu hüquqdan məhrum edilib və onlar üçün qanunvericilikdə, xüsusən də, "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin hesabına köçürülən vəsaitlərdən istifadə Qaydası"nda dəyişiklik edilməsi barədə 21.04.2022-ci il tarixli, 170 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarında hər hansı keçid müddəaları göstərilməyib.

Belə ki, sosial təminat hüququnun məhz Konstitusiyada təsbit olunmuş bir hüquq olması qanunvericinin mülahizə sərbəstliyinin də müəyyən məhdudiyyətlərə tabe olduğunu təsdiq edir. Qanunvericinin bu sahədə mülahizə sərbəstliyi hüquqi müəyyənlik prinsipini pozmamalı və müəyyənləşdirilən qaydalar aydın və birmənalı olmalıdır. Ona görə də, tənzimləmələr Konstitusiyada təsbit olunmuş bərabərlik hüququna, eləcə də normativ hüquqi aktların hüquqa və haqq-ədalətə (bərabər mənafelərə bərabər münasibətə) əsaslanmalı olduğuna dair tələblərə uyğun həyata keçirilməlidir.

Bərabər yanaşma prinsipinin pozulduğunun iddia olunduğu hallarda iki komponentdən ibarət yoxlama sxemi tətbiq olunur. Birincisi, qeyri-bərabər davranışın müəyyən olunması və ikincisi, həmin qeyri-bərabər davranışın Konstitusiyanın 25-ci maddəsi baxımından əsaslı olması. Məhkəmənin qənaətinə görə 2-ci qrupa münasibətdə qeyri-bərabər davranışın mövcudluğu müəyyən olunur. Belə ki, hər iki qrup Gömrük Komitəsində xidmət edib, hər iki qrup həmin əlavəni alıb, hər iki qrup aldığı əlavədən MDSS haqqını ödəyib. Lakin müqayisə olunan qruplardan birinə daxil olan və hüququ yaranmış əməkdaşlara pensiya təyini zamanı həmin əlavə nəzərə alındığı halda, digər qrupa münasibətdə nəzərə alınmır. Halbuki, qruplara daxil olan əməkdaşlar arasında qeyri-bərabər davranışa haqq qazandıran və belə davranışı şərtləndirən əhəmiyyətli fərqlər (xidmətlə, əlavənin və MDSS haqlarının ödənişi ilə bağlı) müəyyən olunmur. Konstitusion tələblər baxımından, fərqli tənzimləmə və qeyri-bərabər davranış üçün obyektiv səbəblər mövcud deyil. Nəzərə almaq lazımdır ki, qeyri-bərabər davranışa haqq qazandıran əsaslı səbəblərin mövcudluğu tələb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə əsasən normativ hüquqi aktlar hüquqa və haqq-ədalətə, o cümlədən bərabər mənafelərə bərabər münasibət prinsipinə əsaslanmalıdır. Həmin normada "hüquq" anlayışı yalnız qanunvericilik texnikasına uyğunluğu deyil, həm də hüquqi müəyyənlik və normativ sabitlik kimi prinsipləri əhatə edir. "Haqq-ədalət" anlayışı isə normativ hüquqi tənzimləmənin cəmiyyətin ümumi maraqları ilə fərdlərin qanuni gözləntiləri arasında ədalətli və mütənasib balans yaratmasını, eyni və ya oxşar hüquqi vəziyyətdə olan şəxslərin obyektiv və əsaslandırılmış səbəblər olmadan fərqli hüquqi rejimlərə və rəftara tabe edilməsinin yolverilməzliyini nəzərdə tutur.

Həmin normada təsbit edilmiş "bərabər mənafelərə bərabər münasibət" prinsipi mahiyyət etibarilə Konstitusiyanın 25-ci maddəsində nəzərdə tutulan bərabərlik hüququnun normativ hüquqi tənzimləmə sahəsində konkret təzahür formalarından biridir. Bu prinsip ondan ibarətdir ki, hüquqi baxımdan eyni və ya oxşar mənafelərə malik olan şəxslər normativ hüquqi aktların qəbulu və tətbiqi zamanı eyni hüquqi rejimə tabe edilməlidir, onlara münasibətdə fərqləndirmə yalnız obyektiv və ağlabatan əsaslara söykəndiyi hallarda yol verilən hesab oluna bilər. Həmin prinsip bərabərlik hüququnun xüsusi ifadəsi kimi çıxış edərək normativ hüquqi aktların məzmununun konstitusion nəzarətinin aparılmasında mühüm meyar rolunu oynayır. Belə ki, normativ tənzimləmə nəticəsində eyni mənafelərə malik şəxslər arasında əsassız fərqləndirmə yaradıldığı halda, bu hal təkcə bərabərlik hüququnun deyil, eyni zamanda hüquqi müəyyənlik və ədalətlilik tələblərinin də pozulmasına gətirib çıxarır.

Məhkəmə kollegiyası vurğulamışdır ki, Konstitusiyanın 149-cu maddəsinin mahiyyəti ondan ibarətdir ki, qanunverici və digər normayaratma subyektləri normativ hüquqi tənzimləmə apararkən eyni mənafelərə malik olan şəxsləri ağlabatan səbəblər olmadan fərqli hüquqi rejimlərə tabe edə bilməz, habelə hüquqların məhdudlaşdırılması və ya dəyişdirilməsi zamanı ardıcıl və məntiqi yanaşma sərgiləməlidir. Bu norma, eyni zamanda, normativ aktların tətbiqi nəticəsində yaranan əsassız normativ hüquqi boşluqların və qeyri-bərabərliyin qarşısının alınmasına xidmət edir. Hazırkı işə münasibətdə qeyd edilməlidir ki, bu konstitusion norma normativ hüquqi aktlarda dəyişikliklər edilməsi nəticəsində yaranan əsassız hüquqi fərqləndirmələrin, normativ boşluqların və hüquqi qeyri-bərabərliyin qarşısının alınmasına yönəlmiş təminat mexanizmi kimi çıxış edir. Belə ki, hüquqi tənzimləmənin bir sahəsində aparılan dəyişikliklərin digər əlaqəli sahələrdə eyni hüquqi vəziyyətdə olan subyektlər üçün uyğunsuz və ya diskriminativ nəticələr doğurması Konstitusiyanın 149-cu maddəsinin tələbləri ilə uzlaşmır. Bu baxımdan, qanunverici və digər normayaratma subyektləri normativ hüquqi aktların dəyişdirilməsi və tətbiqi zamanı hüquqi nəticələri bütöv şəkildə-vahid hüquqi konteksdə qiymətləndirməli, hüquqi ardıcıllığın və bərabərlik prinsipinin real və effektiv təmin olunmasını nəzərə almalıdır.

Məhkəmə kollegiyası hesab etmişdir ki, sözügedən dəyişiklikləri nəzərdə tutan qanun və qərarın hazırlanması zamanı irəli sürülən qanun və qərar layihələri, müzakirələr və əsaslandırmalar iş üçün son dərəcə əhəmiyyətlidir. Apellyasiya instansiya məhkəməsi tərəfindən büdcədənkənar vəsait hesabına ödənilən əlavələrin pensiya məbləğlərinin hesablanmasında nəzərə alınmasının 01.01.2019-cu il tarixdə ləğv olunması üçün qanunvericiliyə edilən təkliflərin və əsaslandırmaların nədən ibarət olması araşdırılmamışdır. Eyni zamanda, Nazirlər Kabinetinin 21.04.2022-ci il tarixli, 170 nömrəli qərarı ilə dolayı mexanizm vasitəsilə bu hüququn faktiki olaraq bərpa edilməsi – 2022-ci il iyulun 1-dən etibarən Azərbaycan Respublikası gömrük sisteminin büdcədənkənar inkişaf fonduna daxil olan vəsaitlərin 60 (altmış) faizinin dövlət büdcəsinə köçürülməsi və həmin vəsait tam həcmdə Komitənin xüsusi rütbəsi olan əməkdaşlarının və mülki işçilərinin aylıq vəzifə maaşlarına əlavə şəklində ödənilməsi və əmək pensiyasının hesablanmasında nəzərə alınması – üçün Nazirlər Kabinetinin hansı təkliflər və əsaslandırmaları əsas götürdüyü araşdırılmamışdır. Beləliklə, bu qanun və qərarların hazırlanması və qəbulu zamanı irəli sürülən qanun və qərar layihələri, müzakirələr və əsaslandırmalar iş üçün son dərəcə əhəmiyyətli olduğu üçün apellyasiya instansiyası məhkəməsi tərəfindən müvafiq sorğularla əldə edilib Konstitusiyasının 25-ci maddəsində nəzərdə tutulan bərabər yanaşma prinsipi baxımdan və Konstitusiyasının 149-cu maddəsinin I hissəsinə əsasən normativ hüquqi aktların hüquqa və haqq-ədalətə, o cümlədən bərabər mənafelərə bərabər münasibət prinsipi baxımından araşdırılmalı və qiymətləndirilməlidir.

Məhkəmə kollegiyası iddiaçıya qarşı fərqli rəftarı həmçinin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ baxımından da qiymətləndirərək qeyd etmişdir ki, hazırkı işdə iddiaçının pensiya hüququ qanunvericiliyin dəyişdirilməsi nəticəsində keçid və kompensasiya tədbirləri nəzərdə tutulmadan məhdudlaşdırılmışdır. Bu hal İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna əsasən, iddiaçının mülkiyyət hüququna müdaxilə kimi qiymətləndirilməlidir. Hazırkı iş üzrə normativ dəyişiklik nəticəsində iddiaçının üzərinə düşən yük şəxsi davranışları və ya fərdi vəziyyətindəki dəyişikliklərlə deyil, yalnız normativ tənzimləmənin müəyyən zaman kəsiyində tətbiq edilməməsi ilə bağlı olmuşdur. Beləliklə, iddiaçı özündən asılı olmayan səbəblərə görə pensiya kimi alacağı məbləğin bir hissəsindən məhrum edilmişdir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi öz presedent hüququnda vurğulamışdır ki, sosial təminat sahəsində dövlətin geniş mülahizə sərbəstliyi olsa da, əsassız olaraq normativ dəyişikliklər nəticəsində şəxslərin üzərinə fərdi və həddindən artıq yük qoyulması Konvensiyayanın 1 saylı Protokolunun 1-ci maddəsinə ziddir (Stefanetti və digərləri İtaliyaya qarşı, 21838/10 və digərləri, 15 aprel 2014, §§65-66).

Məhkəmə kollegiyası hesab etmişdir ki, normativ tənzimləmə nəticəsində iddiaçının üzərinə düşən yük qısa müddətli və ya müvəqqəti xarakter daşımamış, əksinə, onun sosial təminat sahəsində qanuni gözləntilərini ciddi şəkildə sarsıtmışdır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin mövqeyinə görə, dövlət tərəfindən həyata keçirilən müdaxilə nəticəsində fərdi maraqlara həddindən artıq zərər vurulduqda, artıq ictimai maraqla fərdi maraqlar arasında ədalətli tarazlığın qorunduğundan danışmaq mümkün deyildir. Bu səbəblərə görə, hazırkı işdə iddiaçının pensiya hüququna münasibətdə tətbiq edilmiş normativ hüquqi tənzimləmə zərurət və proporsionallıq meyarlarına cavab verməzsə, ictimai maraqla fərdi maraqlar arasında ədalətli tarazlığı pozarsa, nəticə etibarilə, Avropa Konvensiyasının 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusuna səbəb ola bilər. Hazırkı işdə iddiaçı ilə eyni hüquqi rejimdə olan digər şəxslərlə müqayisədə ona münasibətdə fərqli rəftarın tətbiq edilməsinin obyektiv və ağlabatan səbəblərinin mövcudluğu, habelə bu fərqləndirmənin ictimai maraqların müdafiəsi baxımından zəruriliyi və proporsionallığı sübuta yetirilməmişdir. Bu mənada, fərqli rəftar faktiki bərabərsizliyin aradan qaldırılmasına deyil, Konvensiyanın 14-cü maddəsi ilə qadağan edilən ayrı-seçkilik nəticəsinin yaranmasına gətirib çıxara bilər.

Buna görə də, apellyasiya məhkəməsi tərəfindən qanunvericilikdəki dəyişiklikləri nəzərdə tutan qanun və qərarın hazırlanması zamanı irəli sürülən qanun və qərar layihələri, müzakirələr və əsaslandırmalar əldə edilməli və iş üzrə mübahisəli normativ hüquqi tənzimləmə və onun nəticəsində yaranmış fərqli rəftar 1 saylı Protokolun 1-ci maddəsi baxımından mülkiyyət hüququna müdaxilənin zəruriliyi və proporsionallığı, eləcə də Konvensiyanın 14-cü maddəsi baxımından obyektiv və ağlabatan səbəblərin mövcudluğu baxımından araşdırılmalı və qiymətləndirilməlidir. Xüsusilə, iddiaçının və bu kateqoriyaya aid şəxslərin 01.01.2019-cu il tarixindən 01.07.2022-ci il tarixədək bu hüquqdan məhrum edilməsinin hansı qanuni məqsədə xidmət etdiyi, niyə məhz bu zaman kəsiyinə aid şəxslərin daha ağır vəziyyətə salındığı və niyə onların hüquqlarının məhdudlaşdırıldığı araşdırılmalıdır.

Məhkəmə kollegiyası yuxarıda göstərilənlərə əsasən qərara gəlmişdir ki, hazırkı iş apellyasiya instansiyası məhkəməsinə təkrar baxışa göndərilməli, yuxarıda qeyd olunanlar nəzərə alınmaqla Konstitusiyasının 25-ci maddəsində nəzərdə tutulan bərabər yanaşma prinsipi, Konstitusiyanın 149-cu maddəsinin I hissəsində təsbit edilmiş haqq-ədalət, hüquqi ardıcıllıq və bərabər mənafelərə bərabər münasibət prinsipləri, eləcə də, Avropa İnsan Hüquqları Konvensiyanın 14-cü maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsi baxımından iş hərtərəfli araşdırılmalıdır. Belə ki, mübahisələndirilən normativ hüquqi tənzimləmələr üzrə aşağıdakı məsələlərlə bağlı kompleks araşdırmanın və qiymətləndirmənin aparılması tələb olunur: mübahisələndirilən normativ tənzimləmələr hansı məqsədlər üçün edilmişdir və onların həyata keçirilməsi ilə hansı nəticələrə nail olmaq hədəflənir; tənzimləmələrin edildiyi vaxt və şəraitlə bağlı nəzərə alınmalı olan xüsusi hallar varmı; tənzimləmələrin əmək pensiyası təminat sisteminə təsirini minimuma endirmək üçün hansısa tədbirlər, keçid müddəaları nəzərdə tutulmuş və həyata keçirilmişdirmi; tənzimləmələrlə əmək pensiyası alan şəxsləri və ya onların müəyyən qrupunu mütənasibliklə bağlı tələblər nəzərə alınmaqla qiymətləndirmə apardıqda onları əlverişsiz vəziyyətə məruz qoymuşdurmu və əgər məruz qoymuşdursa, hansı səbəblərlə əsaslandırılmışdır.

Məhkəmə kollegiyası hesab etmişdir ki, Dövlət Gömrük Komitəsi tərəfindən Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialına təqdim edilmiş məlumat vərəqləri müvafiq sorğu əsasında əldə edilməli və qanunvericilikdə edilmiş dəyişikliklər nəticəsində həmin vərəqlərdə hansı məlumatların əks etdirildiyi ətraflı araşdırılmalıdır. Xüsusilə, sözügedən 60 faiz əlavə ödənişlərin (digər vəsaitlərin) məlumat vərəqlərində hansı formada göstərildiyi müəyyən edilməlidir. Bu baxımdan araşdırılmalıdır ki, 2019-cu il 1 iyul tarixinədək məlumat vərəqlərində həmin 60 faiz əlavələr necə göstərilmişdir; 2019-cu il 1 yanvar tarixindən 2022-ci il 1 iyul tarixinədək bu əlavələr ümumiyyətlə göstərilməmişdir, yoxsa göstərilmiş, lakin Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı tərəfindən əmək pensiyası hesablanarkən nəzərə alınmamışdır; eləcə də 2022-ci il 1 iyul tarixindən sonra həmin əlavələrin məlumat vərəqlərində hansı formada əks etdirildiyi aydınlaşdırılmalıdır.

Məhkəmə kollegiyası həmçinin hesab etmişdir ki, təkrar apellyasiya baxışı zamanı İnzibati Prosessual Məcəllənin 28.2-ci maddəsinə uyğun olaraq Dövlət Sosial Müdafiə Fondunun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialı zəruri cəlb etmə qaydasında üçüncü şəxs kimi hazırkı işdə icraata cəlb edilməlidir. Belə ki, məhkəmənin iddianı mümkün təmin etməsi halında bu vəziyyət yalnız cavabdehə münasibətdə müvafiq məlumat vərəqi vermək öhdəliyi yaratması ilə nəticələnməyəcək, həm də artıq məsələ məhkəmə qaydasında həllini tapdığı üçün üçüncü şəxsə də həmin məlumat vərəqi əsasında pensiya təyinatı aparmaq öhdəliyi yaradacaqdır. Odur ki, İnzibati Prosessual Məcəllənin 28.2-ci maddəsində təsbit olunmuş dispozisiya şərtləri ödənildiyi üçün zəruri cəlbetmə həyata keçirilməlidir. Təkrar baxışda həmçinin İnzibati Prosessual Məcəllənin 13-cü maddəsinə əsasən iddiaçıya iddia tələbinin dəqiqləşdirilməsi

istiqamətində hüquqi yardım da göstərilməlidir. Məhkəmə, iddiaçının tələbində ümumən haqlı olduğu qənaətinə gələrsə, yeni məzmunda məlumat vərəqinin hansı tarixdən verilməli olduğu, eləcə də pensiyanın hansı tarixdən yenidən hesablanmalı olduğuna dair məsələləri də müzakirə etməlidir. Bu zaman həm qanunvericilikdəki dəyişikliklərin 2022-ci il 1 iyul tarixində qüvvəyə mindiyi, həm də əmək pensiyasının yenidən hesablanması ilə bağlı iddiaçının müraciət tarixi nəzərə alınmalıdır.

# Qanunvericiliyə edilmiş dəyişikliklər

Hüquqi
akta keçid

## 1. "Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının 2026-cı il 20 fevral tarixli 357-VIIQ nömrəli Qanunu

"Avropa Şurasının İnsan orqanlarının alverinə qarşı Konvensiyası" 25 mart 2015-ci il tarixdə Santiaqo-de-Kompostela şəhərində imzalanmışdır.
Azərbaycan Respublikası bu Konvensiyaya xüsusi bəyanatla qoşulmuşdur. Bəyanatda deyilir ki, Konvensiyanın müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlər normallaşana qədər Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcək.
33 maddədən ibarət olan Konvensiyanın məqsədi insan orqanlarının alverinin qarşısının alınması və onunla mübarizə aparılması, bu sahədə müəyyən əməllərin kriminallaşdırılmasının təmin edilməsi, habelə qurbanların hüquqlarının müdafiəsi və tərəflər arasında milli və beynəlxalq əməkdaşlığın gücləndirilməsidir. Konvensiyada insan orqanlarının qanunsuz götürülməsi və bu cür orqanlardan istifadənin qarşısının alınması, habelə qanunsuz götürülmüş orqanların saxlanması, daşınması, ötürülməsi, idxalı və ixracı kimi əməllərlə bağlı cinayət məsuliyyətinin müəyyən edilməsi nəzərdə tutulur. Konvensiyada cinayətlərin istintaqı və təqibi, qarşılıqlı hüquqi yardım və ekstradisiya məsələləri, habelə beynəlxalq əməkdaşlığın təmin edilməsi ilə bağlı müddəalar təsbit edilir. Sənəddə, həmçinin zərərçəkmiş şəxslərin hüquqlarının qorunması, onların fiziki, psixoloji və sosial bərpasına yardım göstərilməsi ilə bağlı müddəalar əks olunur.

Hüquqi
akta keçid

## 2. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 371-VIIQD nömrəli Qanunu

Yeni qanun 8 fəsil və 63 maddədən ibarətdir və uşaq hüquqlarının müdafiəsi ilə bağlı mühüm yenilikləri ehtiva edir.
Qanuna əsasən zorakılıq halları aşkarlandıqda müəllimlər və digər məsul şəxslər məlumat verməyə borcludur, zərərçəkmiş uşaqların reabilitasiyası isə dövlətin öhdəliyi kimi müəyyən edilib.
Bundan başqa uşaq hüquqlarının həyata keçirilməsinə dair məlumat bankı yaradılacaq. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, uşaq izlənilə bilməz, video və foto çəkilişinə, səs yazısına və digər bu cür hərəkətlərə məruz qoyula bilməz. Uşaqlara aid fərdi məlumatların dairəsi, habelə onların toplanması, emalı, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilib.
Qanuna görə, valideynlər (onları əvəz edən şəxslər) qarşılıqlı razılıq əsasında uşaqları özlərinin dini əqidəsinə və dinə münasibətinə uyğun tərbiyə edə bilərlər.
Eyni zamanda uşaqların zorakılıqdan qorunması üçün təhsil və tibb müəssisələri üçün yeni öhdəlik də müəyyənləşib. Valideynlər (onları əvəz edən şəxslər), habelə uşaqlara nəzarəti

həyata keçirmək vəzifəsini daşıyan təhsil, tibb, sosial xidmət, idman, mədəniyyət, istirahət müəssisələrinin və penitensiar müəssisələrin işçiləri uşaqda zorakılıq hərəkətlərinin əlamətlərini aşkar etdikdə konfidensiallığa əməl etməklə, bu barədə aidiyyəti hüquq mühafizə orqanlarına və ya ərazi üzrə aidiyyəti uşaq hüquqlarının müdafiəsi üzrə yerli komissiyaya məlumat verməyə borcludurlar, habelə uşaq qaynar xətt xidmətinə məlumat verə bilərlər.
Bu Qanun qüvvəyə mindiyi gündən "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının 1998-ci il 19 may tarixli 499-IQ nömrəli Qanunu ləğv edilir.

Hüquqi akta keçid

### 3. Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 372-VIIQD nömrəli Qanunu

"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq uşaqların hüquq və azadlıqlarının təmin edilməsi, uşaq hüquqlarının təminatının hüquqi əsaslarının formalaşdırılması məqsədilə bir sıra qanunvericilik aktlarında uyğunlaşdırma xarakterli dəyişikliklər edilmişdir.
Dəyişikliklərə əsasən, mülki, ailə və cinayət qanunvericiliyində uşaqların müdafiəsi gücləndiriləcək, psixoloqların iştirakı genişləndirilib, uşaqlara qarşı zorakılığın qarşısının alınması və onların hüquqlarının qorunması ilə bağlı əlavə təminatlar müəyyən olunub.
Bununla yanaşı, sosial xidmət, media, reklam və digər sahələrdə uşaqların mənafelərinin qorunmasına yönəlmiş yeni tələblər tətbiq edilərək, çətin həyat şəraitində olan uşaqların aşkarlanması və müdafiəsi mexanizmləri daha da təkmilləşdirilib.

Hüquqi akta keçid

### 4. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanunu

Birləşmiş Millətlər Təşkilatının Kibercinayətkarlığa qarşı Konvensiyasının tələblərinə uyğun olaraq, dəyişikliklə Azərbaycan Respublikasının Cinayət Məcəlləsində "kompüter sistemi" ifadəsi "İKT sistemi", "kompüter məlumatları" isə "elektron verilənlər" terminləri ilə əvəz edilmişdir.
Eyni zamanda qanunvericiliyə "trafik verilənləri", "abunəçi məlumatları", "məzmun verilənləri" və "xidmət provayderi" kimi yeni hüquqi anlayışlar daxil edilmişdir.
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə edilən əlavələr isə elektron sübutların toplanması prosesini hüquqi əsaslarla müəyyən edir. Buraya elektron verilənlərin əldə edilməsi, mühafizəsi və prosessual rəsmiləşdirilməsi qaydalarının müəyyən edilməsi, İKT sistemlərinə baxış, axtarış və götürmə tədbirlərinin hüquqi əsaslarının və hədlərinin dəqiqləşdirilməsi aiddir.
Bununla yanaşı, dəyişikliyə əsasən, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə "Məhkəməyədək icraatın elektron qaydada aparılması" adlı yeni maddə daxil edilmişdir.
Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 51-3-cü maddəsində

mövcud olan "Cinayət mühakimə icraatının elektron qaydada aparılması" müddəalarına müvafiq dəyişikliklər edilərək, həmin norma yeni redaksiyada 51-1-ci maddə də verilmişdir. Həmçinin, məhkəmə və prokurorluq arasında sənəd dövriyyəsinin "Elektron məhkəmə" və "Elektron prokurorluq" sistemləri vasitəsilə, gücləndirilmiş elektron imza ilə həyata keçirilməsi mexanizmi təsbit olunur.

Hüquqi akta keçid

## 5. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli 633 nömrəli Fərmanı

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 51-1.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı" və "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti müəyyən edilmişdir.
Eyni zamanda Fərmanın 2-ci bəndində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının 2026-cı il 3 mart tarixli 373-VIIQD nömrəli Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi tapşırılmışdır.
Bundan başqa Fərmanın 3-cü bəndi ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmış, Azərbaycan Respublikasının Ali Məhkəməsinə və Azərbaycan Respublikasının Baş Prokurorluğuna tövsiyə edilmişdir ki, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 51-1.2-ci maddəsinə uyğun olaraq, cinayət mühakimə icraatı zamanı prosessual sənədlərin elektron formada tərtib edilməsi, sənədlərin elektron qeydiyyatı və elektron dövriyyəsi qaydasına dair təkliflərini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsinlər.

Hüquqi akta keçid

## 6. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2026-cı il 19 mart tarixli 86 nömrəli Qərarı

"Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən "Məhkəmə ekspertizası idarələrində aparılan məhkəmə ekspertizalarının siyahısı və məhkəmə ekspertizası fəaliyyəti ilə əlaqədar göstərilən xidmətlərə görə ödənilən haqqın məbləği" təsdiq edilmişdir.

Hüquqi
akta keçid

## 7. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 31 mart tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 31 mart tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddələrində nəzərdə tutulan "hüquqi şəxsin icra orqanının rəhbəri" anlayışının şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi
akta keçid

## 8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 10 aprel tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 10 aprel tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 62-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 74.3-cü maddəsində nəzərdə tutulan "axırıncı yaşayış yeri" və 522.6-cı maddəsində nəzərdə tutulan "sonuncu yaşayış yeri" anlayışlarının "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun 1, 2, 3 və 5-ci maddələri ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi
akta keçid

## 9 . Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 14 aprel tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 14 aprel tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsinin I hissəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321-ci maddəsinin "Qeyd" hissəsinin həmin Məcəllənin 321.1-ci maddəsi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsi və 606-cı maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 45-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

№ 05/2026

Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının
Məhkəmə təcrübəsinin təhlili şöbəsi

# DÜNYADA HÜQUQ

Azərbaycan Respublikasının
Ali Məhkəməsi

# Məhkəmə hakimiyyəti, cinayət hüququ və insan hüquqları

## 1.El Salvadorda 486 nəfərlik kütləvi məhkəmə prosesi başlayıb

El Salvador məhkəməsi MS-13 cinayətkar qruplaşmasının üzvü olduğu iddia edilən 486 şəxsə qarşı kütləvi məhkəmə prosesinə başlayıb. İttihamlar 2012–2022-ci illər ərzində törədildiyi bildirilən 47 mindən çox cinayət epizodunu əhatə edir. Bu proses ölkədə fövqəladə vəziyyət rejimi altında aparılan sərt təhlükəsizlik siyasətinin hüquqi nəticələrini, xüsusilə ədalətli məhkəmə araşdırması və müdafiə hüququ baxımından yenidən gündəmə gətirib.



Xəbərin əslinə keçid

## 2. Almaniyada ümumi cinayətkarlığın səviyyəsi azalsa da, cinsi istismar cinayətlərində artım qeydə alınıb






Almaniyanın 2025-ci il üzrə polis cinayət statistikası ümumi cinayət hallarının əvvəlki illə müqayisədə 5,6% azalaraq 5,5 milyon işə düşdüyünü göstərir. Bununla belə, hesabatda cinsi istismar cinayətlərinin 8,5% artaraq 14 500 işə çatması xüsusi narahatlıq doğuran tendensiya kimi qeyd olunur. Bu məlumatlar cinayət siyasətində yalnız ümumi azalma göstəricilərinə deyil, ayrı-ayrı cinayət kateqoriyalarının sosial-hüquqi risklərinə də diqqət yetirilməsinin vacibliyini göstərir.

Xəbərin əslinə keçid

## 3. AİHM Rusiyanı Yuri Dmitriyevin uzunmüddətli həbsi ilə bağlı qınayıb

Avropa İnsan Hüquqları Məhkəməsi sovet repressiyaları və kütləvi məzarlıqlar üzrə araşdırmaları ilə tanınan rusiyalı tarixçi Yuri Dmitriyevin uzunmüddətli həbsinə görə Rusiyanı qınayıb. Dmitriyev uzun illər Stalin dövrü cinayətləri ilə bağlı faktların üzə çıxarılması istiqamətində fəaliyyət göstərib, hüquq müdafiəçiləri isə ona qarşı cinayət işini siyasi motivli hesab edirlər. Bu iş Rusiyada vətəndaş cəmiyyəti, tarix siyasəti və insan hüquqları müdafiəçilərinə qarşı təzyiqlər kontekstində mühüm hüquqi siqnal kimi qiymətləndirilir.



Xəbərin əslinə keçid

## 4. Sinqapurda narkotik cinayətlərinə görə edamların artması BMT-ni narahat edib




BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı Volker Türk Sinqapurda narkotik cinayətləri ilə bağlı edamların sayının artmasından ciddi narahatlıq ifadə edib. Onun mövqeyinə görə, insan ölümü ilə nəticələnməyən narkotik cinayətləri beynəlxalq insan hüquqları baxımından ölüm cəzasının tətbiqinə əsas verən "ən ağır cinayətlər" kateqoriyasına daxil deyil. Hadisə ölüm cəzasının tətbiqi, mütənasiblik prinsipi və dövlətin cinayət siyasətində insan ləyaqətinin qorunması baxımından beynəlxalq hüquqi müzakirələri yenidən aktuallaşdırıb.

Xəbərin əslinə keçid

## 5. ABŞ Ali Məhkəməsinin seçki hüquqları ilə bağlı yanaşması tənqid olunur



Xəbərin əslinə keçid

ABŞ-da Ali Məhkəmənin seçki hüquqları sahəsində formalaşdırdığı xətt yenidən hüquqi müzakirələrin mərkəzinə çevrilib. Reuters-in təhlilində Roberts dövründə məhkəmənin Seçki Hüquqları Aktının təsir dairəsini daraltdığı və bunun seçki hüquqlarının müdafiəsinə ciddi təsir göstərdiyi qeyd olunur. Məsələ ABŞ konstitusion hüququnda məhkəmə nəzarətinin sərhədləri və seçki bərabərliyi prinsipi baxımından mühüm əhəmiyyət daşıyır.

## 6. Rusiya məhkəməsi “LGBT Network” təşkilatını “ekstremist” elan edib




Xəbərin əslinə keçid

Sankt-Peterburq məhkəməsi Rusiyanın “LGBT Network” təşkilatını “ekstremist təşkilat” kimi tanıyaraq onun fəaliyyətinə ölkə üzrə qadağa qoyub. Qərar Rusiya Ali Məhkəməsinin 2023-cü ildə “beynəlxalq LGBT hərəkatı”nı ekstremist kimi tanıyan qərarından sonra bu sahədə tətbiq olunan hüquqi məhdudiyyətlərin daha da genişləndiyini göstərir. Hadisə ifadə azadlığı, birləşmək hüququ və ayrı-seçkiliyə yol verilməməsi prinsipləri baxımından Rusiyada insan hüquqları məkanının daralması kimi qiymətləndirilir.

# Süni intellekt, rəqəmsal hüquq və texnologiya məsuliyyəti

## 7. Elon Musk OpenAI işi üzrə yenidən ifadə verib

Elon Musk OpenAI ilə bağlı məhkəmə prosesində yenidən şahid qismində ifadə verib. Proses süni intellekt şirkətlərinin idarəetmə modeli, qeyri-kommersiya məqsədləri və sonradan kommersiya strukturlarına keçid məsələləri ətrafında cəmlənir. Bu iş texnologiya hüququnda korporativ idarəetmə, şəffaflıq və Sİ şirkətlərinin ictimai öhdəlikləri baxımından diqqətçəkən presedent kimi izlənilir.




Xəbərin əslinə keçid

## 8. ABŞ-da Sİ ilə hazırlanmış sənəddə buraxılan səhvlərə görə işdən çıxarılan prokuror məhkəmə tərəfindən tənqid edilib




Xəbərin əslinə keçid

ABŞ-da süni intellekt vasitəsilə hazırlanmış hüquqi sənədlərdə səhvlərə yol verilməsi ilə bağlı daha bir hadisə məhkəmə gündəminə çıxıb. Hakim Sİ-dən istifadə nəticəsində yanlış hüquqi istinadların təqdim olunmasını peşəkar məsuliyyət baxımından ciddi problem kimi qiymətləndirib. Bu hadisə hüquqşünasların süni intellekt alətlərindən istifadə edərkən yoxlama, nəzarət və şəxsi məsuliyyət öhdəliyinin aradan qalxmadığını bir daha göstərir.

## 9. Ohayoda Sİ ilə hazırlanmış qanunsuz məzmuna görə ilk məhkumluq qeydə alınıb

ABŞ-ın Ohayo ştatında bir şəxs süni intellekt vasitəsilə hazırlanmış qanunsuz vizual məzmuna görə yeni ştat qanunu əsasında məhkum edilib. İşin əsas hüquqi əhəmiyyəti ondan ibarətdir ki, ənənəvi cinayət hüququ artıq yalnız real görüntülərin qanunsuz dövriyyəsini deyil, süni intellekt vasitəsilə yaradılan saxta və zərərli rəqəmsal materialları da əhatə etməyə başlayır. Məhkəmənin bu yanaşması texnologiyanın sürətli inkişafı fonunda şəxsi toxunulmazlıq, rəqəmsal təhlükəsizlik və zərərçəkmişlərin müdafiəsi baxımından mühüm presedent kimi qiymətləndirilir.




Xəbərin əslinə keçid

## 10. OpenAI-yə qarşı Kanadada məktəb atışmasında ChatGPT-nin rolu ilə bağlı məhkəmədə iddia qaldırılıb



OpenAI Kanadada baş vermiş məktəb atışması ilə bağlı ChatGPT-nin mümkün rolu iddiası əsasında məhkəməyə verilib. İddiaçılar süni intellekt sistemlərinin istifadəçi ilə qarşılıqlı əlaqə zamanı təhlükəli davranış risklərini müəyyən etməsi, zərərli istiqamətləndirmələrin qarşısını alması və həssas vəziyyətlərdə daha ciddi təhlükəsizlik mexanizmləri tətbiq etməsi məsələsini gündəmə gətirirlər. Bu iş AI platformalarının sadəcə texniki vasitə kimi deyil, ictimai təhlükəsizlik və istifadəçi davranışına təsir edən rəqəmsal xidmət kimi hüquqi məsuliyyət daşıyıb-daşımaması sualını aktuallaşdırır.

Xəbərin əslinə keçid

## 11. Avropa Komissiyası Meta-ya uşaqların sosial şəbəkələrə çıxışı ilə bağlı irad bildirib



Xəbərin əslinə keçid

Avropa İttifaqının icraedici orqanı olan Avropa Komissiyası Facebook və Instagram-ın 13 yaşdan aşağı uşaqların platformalara girişinin qarşısını almaq üçün kifayət qədər tədbir görmədiyini bildirib. Komissiyanın ilkin mövqeyinə görə, platformaların istifadə qaydalarında yaş məhdudiyyəti müəyyən etməsi kifayət deyil; bu məhdudiyyət real yaş yoxlama, risklərin qiymətləndirilməsi və uşaqların müdafiəsinə yönəlmiş texniki-təşkilati tədbirlərlə təmin olunmalıdır.

# Tənzimləmə, sosial siyasət və ictimai maraqlar

## 12. İtaliya miqrantların könüllü repatriasiyası üzrə mübahisəli bonus sxemini dəyişib




Xəbərin əslinə keçid

İtaliya hökuməti miqrantların könüllü şəkildə ölkəni tərk etməsini təşviq edən bonus mexanizmi ilə bağlı mübahisəli qaydalara dəyişiklik edib. Sözügedən mexanizmə əsasən, müəyyən kateqoriyadan olan miqrantlara İtaliyanı könüllü tərk etmələri müqabilində maliyyə dəstəyi göstərilməsi nəzərdə tutulurdu. Lakin bu sxem miqrantların qərarının həqiqətən könüllü olub-olmaması, onların hüquqi statusu barədə tam məlumatlandırılıb-məlumatlandırılmaması və sosial baxımdan həssas şəxslərə təsiri ilə bağlı müzakirələrə səbəb olub.

## 13. İngiltərədə məktəblərdə mobil telefonlardan istifadənin qadağan edilməsi planlaşdırılır

İngiltərə hökuməti məktəblərdə mobil telefonların istifadəsinə dair mövcud tövsiyələri qanuni qadağaya çevirməyi planlaşdırır. Dəyişiklik uşaqların rifahı və məktəb təhlükəsizliyi ilə bağlı daha geniş qanun layihəsi çərçivəsində irəli sürülür. Bu təşəbbüs təhsil hüququ, uşaqların müdafiəsi və məktəblərin intizam səlahiyyətləri baxımından mühüm praktiki nəticələr doğura bilər.



Xəbərin aslinə keçid

## 14. Türkiyədə də 15 yaşdan aşağı uşaqlar üçün sosial media məhdudiyyəti qəbul edilib




Türkiyə Böyük Millət Məclisi 15 yaşdan aşağı uşaqların sosial media platformalarından istifadəsini məhdudlaşdıran qanun qəbul edib. Qanun sosial media platformalarının yalnız formal “yaş həddi” qeyd etməsi ilə kifayətlənməməsini, real yaş doğrulama mexanizmləri tətbiq etməsini və uşaqların platformalara çıxışına nəzarəti gücləndirməsini nəzərdə tutur. Bu yanaşmanın əsas məqsədi uşaqları zərərli kontentdən, kibertəhlükələrdən, asılılıq riskindən və rəqəmsal mühitdə manipulyativ təsirlərdən qorumaqdır.

Xəbərin aslinə keçid

## 15. İtaliyada azyaşlılarla evliliyi müdafiə edən imam ölkədən çıxarılıb



Xəbərin əslinə keçid

İtaliyada pakistanlı imamın azyaşlılarla evliliyi məqbul göstərən açıqlamaları ciddi ictimai reaksiyaya səbəb olub. İtaliya Daxili İşlər Nazirliyi həmin şəxsi ictimai təhlükəsizlik baxımından riskli hesab edərək onun ölkədən çıxarılması barədə inzibati qərar qəbul edib. Hadisə miqrasiya hüququ, ifadə azadlığı və insan hüquqlarına zidd çağırışlara qarşı dövlətin preventiv səlahiyyətləri baxımından müzakirə olunur.

## 16. Böyük Britaniyada “siqaretsiz nəsil” qanunu qəbul mərhələsinə yaxınlaşıb



Xəbərin əslinə keçid

Böyük Britaniyada 1 yanvar 2009-cu il və bu tarixdən sonra doğulan şəxslərə tütün məhsullarının satışını qadağan edən qanun layihəsi parlament mərhələsindən keçib. Layihənin əsas məqsədi siqaret çəkməyi birbaşa cinayət əməli kimi qadağan etmək deyil, həmin nəsil üçün tütün məhsullarına qanuni çıxışı mərhələli şəkildə bağlamaqdır. Bu yanaşma “siqaretsiz nəsil” yaratmaq, xüsusilə yeniyetmələrin nikotin asılılığına düşməsinin qarşısını almaq və uzunmüddətli perspektivdə səhiyyə sisteminin yükünü azaltmaq məqsədi daşıyır.

## 17. Avropa Parlamenti it və pişiklərin müdafiəsi üzrə yeni qaydaları təsdiqləyib

Avropa Parlamenti Aİ məkanında it və pişiklərin yetişdirilməsi, saxlanılması, idxalı, daşınması və izlənilməsi ilə bağlı vahid standartlar müəyyən edən yeni qanun layihəsini təsdiqləyib. Qaydalara əsasən, sağlamlıq riski yaradan seleksiya, eyni-cinsli cütləşdirmə və heyvanlara zərər verən müdaxilələr kimi kommersiya praktikaları qadağan edilir. Tənzimləmə həm heyvan rifahının qorunmasına, həm də qeyri-qanuni yetişdiricilik və nəzarətsiz heyvan ticarəti ilə mübarizəyə yönəlib.



Xəbərin əslinə keçid

## İqtisadi hüquq, beynəlxalq münasibətlər və regional hüquqi proseslər

## 18. Ticarət hüququ milli təhlükəsizlik siyasətinin alətinə çevrilir



Xəbərin əslinə keçid

ABŞ-da tariflər və ticarət məhdudiyyətləri artıq yalnız iqtisadi siyasət vasitəsi kimi deyil, həm də milli təhlükəsizlik mexanizmi kimi tətbiq olunur. Bu kontekstdə IEEPA — yəni Beynəlxalq fövqəladə iqtisadi səlahiyyətlər haqqında qanun — xüsusi əhəmiyyət daşıyır. IEEPA daha çox sanksiyalar, aktivlərin dondurulması, maliyyə əməliyyatlarının məhdudlaşdırılması və xarici iqtisadi əlaqələrə nəzarət üçün istifadə olunur. Lakin son dövrlərdə ABŞ administrasiyasının bu və digər ticarət hüququ mexanizmlərindən daha geniş istifadə etməsi ticarət hüququnun strateji xarakterini gücləndirir

## 19. Özbəkistanda islam maliyyəsi haqqında qanun qəbul edilib




Xəbərin əslinə keçid

Özbəkistanda islam maliyyəsi ilə bağlı qanunun qəbul edilməsi ölkənin maliyyə sektorunun diversifikasiyası və alternativ maliyyə alətlərinin inkişafı baxımından mühüm addım hesab olunur. Yeni hüquqi çərçivə ənənəvi faiz əsaslı bankçılıq modelindən fərqli olaraq, şəriət prinsiplərinə uyğun maliyyə məhsullarının tətbiqinə imkan yaradır. Bu modeldə əsas yanaşma faiz gəliri deyil, aktivə əsaslanan maliyyələşmə, risklərin bölüşdürülməsi və real iqtisadi fəaliyyətlə bağlı investisiya münasibətləridir.

## 20. Beynəlxalq Cinayət Məhkəməsi Timbuktu müharibə cinayətlərinin qurbanları üçün reparasiya qərarı qəbul edib



Xəbərin əslinə keçid

Beynəlxalq Cinayət Məhkəməsi Malinin Timbuktu şəhərində 2012–2013-cü illərdə törədilmiş müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərin qurbanları üçün reparasiya qərarı qəbul edib. Reparasiya beynəlxalq hüquqda zərərçəkmiş şəxslərə və ya icmalara vurulmuş ziyanın aradan qaldırılması üçün kompensasiya, reabilitasiya, bərpa və simvolik tədbirlərin görülməsi deməkdir. Həmin dövrdə Malidə silahlı qruplaşmalar Timbuktu şəhərini ələ keçirərək əhaliyə qarşı zorakılıq, məcburi nikah, cinsi zorakılıq, qanunsuz həbs, dini və tarixi abidələrin dağıdılması kimi ağır cinayətlər törətmişdi.

Xüsusilə Timbuktunun UNESCO irsinə daxil olan tarixi-mədəni abidələrinin hədəfə alınması bu işi həm insan hüquqları, həm də mədəni irsin qorunması baxımından beynəlxalq gündəmə çıxarmışdı.

# “İsveçrə kralı”: hüquqi boşluqdan doğan “krallıq” və məhkəmədə qismən qələbə





İsveçrədə özünü “kral” elan edən Jonas Lauwinerin hekayəsi ilk baxışda qəribə şəxsi təşəbbüs kimi görünsə də, əslində hüquqi baxımdan maraqlı bir məsələni ortaya çıxarır: qanunda mövcud olan texniki boşluqlar bəzən gözlənilməz hüquqi nəticələr yarada bilər. Lauwiner İsveçrə qanunvericiliyində sahibsiz əmlakla bağlı mövcud mexanizmdən istifadə edərək müxtəlif kantonlarda sahibsiz və ya istifadəsiz qalmış torpaq sahələrini öz adına rəsmiləşdirib. Daha sonra bu əraziləri simvolik şəkildə “Lauwiner İmperiyası” adlandırıb və özünü “İsveçrə kralı” kimi təqdim etməyə başlayıb.

Lauwiner formal prosedurlardan istifadə edərək kiçik torpaq sahələrinə, o cümlədən bəzi yol hissələrinə sahib çıxıb. Bu isə yerli icmalar və bələdiyyələr üçün praktik problem yaradıb: əvvəllər ümumi istifadə edilən bəzi sahələr birdən-birə konkret şəxsin mülkiyyətinə keçib. Beləliklə, fərdi mülkiyyət hüququ ilə ictimai maraq arasında klassik gərginlik yaranıb.

Lauwinerin adı sonradan başqa bir qeyri-adi məhkəmə işi ilə də gündəmə gəlib. O, Almaniyadan idxal etdiyi, hərbi istifadədən çıxarılmış zirehli kəşfiyyat maşınını İsveçrədə qeydiyyata aldırmışdı. Lakin Bern kantonuna köçdükdən sonra yerli yol hərəkəti orqanı təhlükəsizlik əsaslarını göstərərək həmin nəqliyyat vasitəsinin lisenziyasını və qeydiyyat nişanlarını geri götürüb. Qurum hesab edib ki, belə bir zirehli maşın mülki yollarda təhlükə yarada bilər.

Lauwiner bu qərardan məhkəməyə şikayət edib və Bern İnzibati Məhkəməsində qismən uğur qazanıb. Məhkəmə belə qənaətə gəlib ki, səlahiyyətli orqan nəqliyyat vasitəsinin qeydiyyatını ləğv etməzdən əvvəl daha ətraflı texniki yoxlama aparmalı idi. Yəni ümumi təhlükəsizlik narahatlığı inzibati müdaxilə üçün kifayət etsə də, belə müdaxilə konkret faktiki və texniki əsaslandırmaya söykənməlidir. Bu baxımdan məhkəmə inzibati orqanın qərarını tam deyil, qismən əsassız hesab edib.

Bununla belə, qərar Lauwiner üçün tam qələbə deyil. Onun bütün tələbləri təmin edilməyib və işin Federal Ali Məhkəməyə daşınması ehtimalı qalır. Hazırda məsələ tam yekunlaşmış sayılmır.

**Qeyd edirik ki, bülletendə yer alan bütün məlumatlar açıq internet resurslarından götürülmüşdür. Məlumatların düzgünlüyü və aktuallığı üçün məsuliyyət həmin mənbələrə məxsusdur.*

**Əlavə məlumat və suallar üçün:**


Nilgün Məmmədova – **1830**

Bahar Oruclu – **1818**

*Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının Məhkəmə təcrübəsinin təhlili şöbəsi*


# Faydalı keçidlər

1. UN News – https://news.un.org
2. Council of Europe Newsroom – https://www..int/en/web/portal/news
3. EU Law & Justice News – https://europa.eu/newsroom
4. OECD – https://oecd.org/newsroom
5. Avropa İnsan Hüquqları Məhkəməsi (ECHR HUDOC) – https://hudoc.echr.coe.int
6. Avropa Ədalət Məhkəməsi (ECJ/ CJEU) – https://curia.europa.eu
7. Beynəlxalq Ədalət Məhkəməsi (ICJ) – https://icj-cij.org
8. Transparency International – https://transparency.org
9. World Justice Project – https://worldjusticeproject.org
10. UNODC – https://unodc.org
11. Harvard Law Today – https://today.law.harvard.edu
12. Stanford Law and Technology Review - https://law.stanford.edu/stanford-technology-law-review-stlr/
13. The Guardian – Law section – https://theguardian.com/law
14. Law.com International– https://www.law.com/international
15. Reuters Legal – https://www.reuters.com/legal
16. Bloomberg Law – https://news.bloomberglaw.com
17. Financial Times – Law Section – https://www.ft.com/law
18. JURIST – https://www.jurist.org
19. Law360 – https://www.law360.com.
20. Global Arbitration Review (GAR) – https://globalarbitrationreview.com
21. The Lawyer – https://www.thelawyer.com
22. European Law Blog – https://europeanlawblog.eu
23. Euractiv – Justice & Home Affairs – https://www.euractiv.com/section/justice-home-affairs
24. ABA Journal (American Bar Association) – https://www.abajournal.com
25. International Association of Judges - https://www.iaj-uim.org/iuw/

AZƏRBAYCAN RESPUBLİKASININ
ALİ MƏHKƏMƏSİ